# Cənublu gənclər Masallıda toplaşdılar

Masallının Heydər Əliyev parkında rayon icra hakimiyyəti, Lənkəran-Astara Regional Gənclər və İdman, eləcə də Regional Mədəniyyət idarələrinin birgə təşkilatçılığı ilə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin yaranmasının 31 illiyinə həsr olunmuş II Regional Gənclər Festivalı keçirilmişdir.

Festivalda rayon icra hakimiyyətinin başçısı Araz Əhmədov, Milli Məclisin deputatı Məşhur Məmmədov, Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin rəisi Teymur Babazadə, digər rəsmi şəxslər, media nümayəndələri və regionun gəncləri iştirak etmişlər.

Tədbir iştirakçıları müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət etdikdən sonra idmançıların nümunəvi çıxışlarına, Masallı Gənclər Evi SXM-nin, Dövlət Rəsm Qalereyasının, rayon Tarix-Diyarşünaslıq Muzeyinin, Əlil Sahibkarlar İctimai Birliyinin, rayon Mərkəzi Kitabxana Sisteminin, Uşaq Gənclər İnkişaf Mərkəzinin, Uşaq Gənclər Şahmat Məktəbinin stendləri ilə tanış olmuşlar.

Tədbiri açan RİH-in başçısı Araz Əhmədov bildirdi ki, Ulu Öndər gənclərə həmişə böyük qayğı, sevgi ilə yanaşırdı: "Çox yaxşı bilirdi ki, ölkəmizin gələcəyi gənclərin əlində olacaq. Bugünkü Azərbaycan gəncliyi Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı xidmətlərini yüksək qiymətləndirir, onun bizə bəxş etdiyi Azərbaycanın müstəqilliyini, elmin, təhsilin inkişafını, ölkəmizin siyasi, iqtisadi yüksəlişini, gənclərə olan diqqəti və qayğını dərin ehtiram hissi ilə xatırlayır".

Natiq daha sonra söylədi ki, ölkəmizdə Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu uğurlu gənclər siyasəti eyni ardıcıllıqla davam edir: "Biz tarixi hadisələrlə zəngin bir dövrü yaşayırıq. Azərbaycan öz tarixində heç vaxt olmadığı qədər müstəqil və güclü dövlətə malikdir. O, regionda və dünyada sayılır və dövlətimizlə hesablaşırlar. Bunun arxasında əzmkarlıq, mübarizlik və düşünülmüş uzaqgörən siyasətin davamçısı cənab Prezident İlham Əliyevin liderliyi dayanır".

Bu gün Azərbaycan gənclərinin cəmiyyətimizin fəal üzvləri olduğunu bildirən A.Əhmədov dedi ki, biz haqlı olaraq gənclərimizlə fəxr edirik: "Bizim gənclərimiz torpaq uğrunda, Vətən uğrunda vuruşublar. Şəhidlərimizin böyük əksəriyyəti gənclərimizdir. Allah bütün şəhidlərimizə rəhmət eləsin!"

Sonra Milli Məclisin deputatı Məşhur Məmmədov, Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin rəisi Teymur Babazadə çıxış edərək bildirdilər ki, bütün gənclər Prezident İlham Əliyevin ölkəmizin tərəqqisi, beynəlxalq sferada nüfuzunun artırılması, respublikanın ərazi bütövlüyünün bərpa olunması naminə irəli sürdüyü siyasəti və gördüyü işləri dəstəkləyir.

Çıxışlardan sonra gənclər Heydər Əliyev Mərkəzində "Bizim maraq dairəmiz", Tarix-Diyarşünaslıq Muzeyində "Müasir peşələr və gənclik", "Rəqəmsal gənclik", "Özünükəşf və nitqin inkişafı" mövzuları üzrə panel müzakirələrində iştirak etmişlər.

Tədbir ASAN İntellektual Mərkəzində cənub gənclərinin "Gənclər düşünür" intellektual yarışı ilə yekunlaşmışdır.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

Azərbaycan.-2025.- 27 iyul (№ 154).- S.7.